**Nur övladı**

***Böyiik millətin Böyük oğlu, ümummilli lider, nudulmaz Heydər Əliyevin xatirəsinə***

Yaxşılıq adında min cür dən əkdi,-
Halaldan halaldı, dürr idi, getdi.
Bir əli yerdəydi, bir əli göydə,
İnsan simasında pir idi, getdi.

Torpağa bağlıydı zəkası, qəlbi,-
Qurub - yaratmaqdan düşməzdi əli.
Vətənçün yanırdı o, günəş kimi,-
Peyğəmbər misalda ər idi, getdi.

Saldığı bağların daddı barını,-
Canıyla qorudu elin varını.
Dövran əyəmmədi şah vüqarını,-
Paklıq timsalında bir idi, getdi.

Mərdlik meydanında o, şahmurazdı,-
Sözünün üstündə söz olammazdı.
Min yazsan, min desən, yenə də azdı,-
Fikirdə, xəyalda hürr idi, getdi.

Uca zirvələrdən ucada durdu,-
Doğma balasıtək sevdi bu yurdu!
Günəş amalıyla yaratdı, qurdu,-
Bənnaydı, qadirdi, əsgərdi, getdi.

Üstünə yerisə, dağ baş əyərdi,-
Haqq idi, sözünü haqla deyərdi!
Səhra nəfəsindən qumaş geyərdi,-
Qeyrətdi, qüdrətdi, hünərdi, getdi.

Elin yaddaşından silinməz izi, -
Yanır, sönən deyil ocağı, közü.
Gedəndə elə bil gülürdü üzü,-
Ölmədi, günəştək əridi, getdi.

Fəqət, vaxtsız yetdi ömrünün sonu,
Göylər də yas qurdu ağlasın onu.
El axıb gəldi ki, saxlasın onu,-
Nurdan yaranmışdı, nur idi, getdi.

Min illər keçsə də, deyəcək min səs:
Məzarı Məkkədir, adı müqəddəs!
Onuntək dünyaya bir kimsə gəlməz,-
O, Heydər gəlmişdi, Heydər də getdi.

***Nəriman Hüseyn***

***Savalan. – 2006. – 9-11 may. - S.3.***